

FAİQ QİSMƏTOĞLU
faiq_qismetoglu@box.az

# DÜYÜN

## Yaxud yolun ortasına atılmış meyit

(Əvvəli 25 yanvar, 1-8-15 fevral sayımızda)

... Məhkəmə salonunda bir canlanma yarandı; müttəhimlər Nəcəf və Eldar Babayev qardaşlarının həyəcanları bir qədər də artdı. Gah əllərindəki qandallara baxırdılar, gah da hakimin gözlərinə. Çünki prokurorun 13 il cəza istəməsi onların bütün ümidlərini puç eləmişdi. Hər iki müttəhim bir göydə Allaha ümid bəsləyirdilər, bir də yerdə hakimin ədalətinə! Bu ədaləti isə bərpa etmək və qorumaq elə də asan deyildi...

Müşavirədən qayıdan hakim Məmməd Kərimov bir daha məhkəmə salonuna diqqət yetirdi. Bir daha dövlət ittihamçısına və müttəhimlərə baxdı. Hiss etdi ki, hamı həyəcanlıdı. Prokuror istədiyi cəzanın məhkəmə hökmünü gözləyir, müttəhimlər və onun vəkili isə hakimin hansı hökmü oxuyacağının intizarındaydılar. Bütün bunların hamısını hakim çox yaxşı bilirdi. Uzanan məhkəmə prosesində kimin haqlı, kimin haqsız olması artıq üzə çıxmışdı. Sadəcə olaraq, bir ədalətli mövqe tutmaq lazım idi. Bu mövqeyi də hakim Məmməd Kərimov dəqiq müəyyənləşdirmişdi. Kiminsə cəzasını və günahını başqalarının üstünə atmaq elə özü də bir günah idi. Bunların hamısını hakim yaxşı bilirdi.

Axır ki, hakim Məmməd Kərimov məhkəmənin hökmünü salondakıların nəzərinə çatdırdı: "Müttəhimlər Nəcəf və Eldar Babayev qardaşlarının cinayət əmməlləri məhkəmə istintaqı zamanı sübuta yetirilmədi. Ona görə də hər iki müttəhim məhkəmə zalından azadlığa buraxılır".

Təbii ki, ədalətli hökmün səslənməsi salondakıların əksəriyyətinin böyük sevincinə səbəb oldu. Hətta hər iki azad olmuş şəxsin qollarındakı qandalları nəzarətçi açsa da, onlar gözlərinə inanmırdılar. Çünki onlar ən azından elə bilirdilər ki, hakim prokurorun ittihamından sonra 10 il cəza kəsəcək. Və Nəcəf və Eldar qardaşlarına hakimin ədalətli hökmü bir yuxu kimi gəlirdi. Elə bilirdilər ki, yuxu görürlər. Ancaq elə ki, onlar məhkəmə salonundan çıxdılar, doğmaları ilə görüşdülər, bax, onda hiss etdilər ki, həqiqətən azaddılar.

Nə az, nə çox düz 10 ay onlar Bayıl təcridxanasında istintaq altında olmuşdular. Dəfələrlə məhkəmə prosesi zamanı Füzuliyə gətirilib, Bakıya aparılmışdılar. Bu gedib-gəlmək aydındır ki, onlar üçün dustaq maşınında o qədər də asan deyildi. Və onlar elə bilirdilər ki, bu işin axırı hansısa bir cəzayla yekunlaşacaq. Ancaq haqq-ədalət və hakimin obyektiv mövqe tutması onları bu haqsız cəzadan xilas eləmişdi...

Ailəsinə qovuşan hər iki qardaş göydə Allaha, yerdə də hakimə dua edirdilər. Deyirdilər ki, ədalətli hakim olmasaydı, günahsız yerə türmədə çürüyəcəkdilər.

Məhkəmənin hökmündən hamı razı qalsa da, təbii ki, dövlət ittihamçısı çox narazı idi. Üstəlik də cinayət işi yenidən istintaqa qaytarılmış, Rüstəm kişini öldürən adamların tapılması üçün araşdırmalar aparmalıydı. Məhkəmənin hökmündən prokuror Ali Məhkəməyə protest vermişdi. Və Ali Məhkəmədə də cinayət işinə baxılaraq, hakimin çıxardığı hökm qüvvədə saxlanılmışdı.

Müəyyən zaman keçsə də, nə axtarışlar bəhrə verdi, nə də istintaq hərəkətləri. Rüstəm kişinin qatilləri tapılmadı ki, tapılmadı...

... Hakim Məmməd Kərimov kabinetində əyləşib hansısa cinayət işini vərəqləyirdi. Bu vaxt katibə qız yaxınlaşıb dedi:

- Kərimov, sizin yanınıza Məhərrəm müəllim gəlib.

Məhərrəm müəllimin adını eşidən kimi hakim ayağa qalxdı. Qıza dedi ki, heç belə şey olar, mənim dostumu niyə qapının ağzında saxlamısan? Qoy buyursun içəri!

Məmməd Kərimov Füzuliyə gələn gündən özünə yaxşı dostlar tapmışdı. Onlardan da biri raykomda şöbə müdiri işləyən Məhərrəm Nəzərov idi. Məhərrəm Nəzərov Komsomolun II və I katib vəzifələrində işləmişdi. Təcrübəsi və savadıyla seçilirdi. Heç kimdən də çəkinən adam deyildi. Kiməsə sözü olsaydı, onun özünə deyərdi.

Məhərrəm müəllim hakimin otağına keçəndə artıq Məmməd Kərimov ayaq üstə onu gözləyirdi. Salamlaşdılar və mehribancasına görüşdülər. Sonra da Məhərrəm müəllim stulda əyləşib dostuyla söhbətə başladı:

- Bizim kənddə belə bir adət var; biri çətinə düşəndə camaat yığışıb pul yığır və onu çətin vəziyyətdən qurtarır. Bizim həmyerlilər də kasıb adamlar idi, camaat 4 min manat pul toplayıb. Sən də çox sağ ol, onların günahsız olduğunu sübut elədin və azadlığa buraxdın. Bu 4 min manatı gətirmişəm ki, qonağın-qaran olar, onu xərclə.

Hakim Məmməd Kərimov bir qədər əsəbləşdi:

- Məni qanıma qəltan eləsələr də, heç vaxt haqqı nahaqqa verən deyiləm. O pulu da götür, apar ver həmin adamlara. 10 ay həbsxanada yatıblar, yazıqdılar, qoy ehtiyaclarına xərcləsinlər. Mən o pulu götürsəm və xərcləsəm, boğazımda balıq sümüyü kimi ilişib qalar.

Məhərrəm müəllim bir qədər pörtdü və səhvini anladı. Kağıza bükülü vəziyyətdə olan dörd min manatı cibinə qoydu və sonra da dilləndi:

- Kərimov, məni qınama ey, yerlilərim mənə dinclik vermirdi. Mən elə belə də bilirdim. Bilirdim ki, o pulu götürməyəcəksən və geri qaytaracaqsan. Sadəcə olaraq, bu yük boynuma düşdüyü üçün etiraz eləyə bilmədim.

Məhərrəm müəllim hakimlə xudahafizləşib onun kabinetindən çıxandan sonra elə həmin gün kəndə qayıdanda pulu o qardaşlara göndərdi və dedi ki, hakim pulu götürmədi. Dedi ki, öz ehtiyaclarına xərcləsinlər. Bunu eşidən qardaşlar birinci dəfə idi ki, həyatlarında belə hadisəyə rast gəldiklərini dilə gətirdilər. Bildirdilər ki, o, bizim pulumuzu götürmədi. Allah ömrünü uzun eləsin. Biz də həmişə ulu Yaradana dua eləyəcəyik ki, Kərimovu qorusun!

... Poçtalyon Qadirin kefi ala buluddan nəm çəkirdi. Bütün günü Füzulinin yaxşı yeməkxanalarında və bulaq başında tamadalıq eləyirdi. Hava çox isti keçdiyi üçün bulaq başına gələnlərin sayı-hesabı yox idi. Və yadına düşdü ki, neçə aydı sudya ilə görüşmür. O dəqiqə fikrini dəyişdi, düz gedib çıxdı məhkəmənin binasına. Katibə qız onu görən kimi tay əvvəlki təki sorğu-suala tutmadı. Poçtalyon Qadir ona salam verdi, qız da salamını çox səmimiyyətlə aldı:

- Sudya yerindədi? - soruşdu.

- Bəli!

... Qız içəri keçib poçtalyon Qadirin gəldiyini hakimə çatdırdı. Tay bu dəfə poçtalyon Qadir gözləmədi. Elə birbaşa hakimin otağına keçdi. Hakim də elə bil onun gəlməyini gözləyirmiş. Masanın üstündəki "Malbro" siqaretindən birini götürüb çəkdi və poçtalyon Qadirə dedi ki, lap yaxşı vaxt gəlmisən, elə bir işim də yoxdu. Dur gedək "Çənlibel"ə, orda sənə bir qonaqlıq verəcəm.

- Sudya, axı mən ora tək getmək istəmirəm. Seyran müəllim gələndə gedərik.

Hakim:

- Allah sənin köməyin olsun, Seyran Bakıda öz kefindədi. Nə vaxt gələr, onda yenə gedərik. İndi qanım qara deyil. Keçən həftə sən gələndə çox dilxor idim, həm də əsəbi idim. Heç çörək yeməyə də dəvət eləmədim. Bax, indi onun əvəzini çıxmalıyam. Kefini pozma, cibinə xərclik də qoyacam.

... Yayın istisi idi. Füzulidə ən sərin yerlərdən biri Köndələn çayının üstündəki "Çənlibel" restoranı idi. Bura da çox vaxt vəzifəli adamlar gəlirdilər. Amma hakim ora gələndə ona xüsusi bir sevgi vardı. Birincisi, o heç kəsə imkan verməzdi ki, yeyib-içəndən sonra kimsə onun hesabını ödəsin. İkincisi də xidmət göstərənlərə həmişə əlavə pul da verirdi. Deyirdi ki, bunlar çox əziyyət çəkirlər. Gərək biz onların zəhmətini yerdə qoymayaq.

Başqa yerdə nə qədər hava isti olsa da, "Çənlibel"in təmiz havası ora gəlib yeyib-içənlərə ləzzət eləyirdi. Bu dəfə masanın arxasında əvvəllər olduğu kimi, çox adam yox idi: bir hakim idi, bir də poçtalyon Qadir! Masanın arxasında o qədər lətifələr danışdı ki, hakim uğunub getdi. Dedi ki, Allah köməyin olsun, ay Qadir, o qədər lətifə danışdın ki, yemək-içmək də yaddan çıxdı. Heç poçtalyon Qadirin elə yeyib-içməyi də yox idi. Sadəcə olaraq, o, yeməkdən çox masa arxasında əyləşdiyi adamların aurasından ləzzət alırdı. Əgər masa arxasında əyləşmiş adamlardan biri Qadirin ürəyincə deyildisə, onu öldürsən də duzlu-məzəli, şirin lətifələr danışa bilməzdi.

...Yeməkdən çox, o masanın arxasında əyləşən adamların duzlu olması onu düşündürürdü. Və onu da düşünürdü ki, elə bu sudya dünyanın ən duzlu, ən yaxşı, ən ədalətli adamıdı. Poçtalyon Qadir dünyanın ən duzlu, ən ədalətli hakimi ilə düz iki-üç saat əyləşib həm çörək yedi, həm ürəyini boşaltdı, həm də o ki, var təzə lətifələr danışdı...

... Hələ də yayın istisi özünü göstərirdi. Günəşin isti nəfəsi adamları karıxdırsa da, amma nə hakimi, nə də poçtalyon Qadiri karıxdırmırdı. Hər ikisinin "Çənlibel"dən çıxandan sonra çiyinlərindən ağır yük götürülmüşdü. Və hər ikisi çox rahat, çox sakit və çox da nikbin idi...